***ANGC-nin AYAMAN-ın Konfrans və Sərgisindəki iştirakı haqqında qısa hesabat.***

***03-07 iyun 2012***-ci ildə Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti Avropa Yerlemləri Alimləri və Mühəndisləri Assosiasiyasının Kopenhagendə keçirilən 74-cü Konfrans və Sərgisində iştirak etmişdir.

Konfransda Avropa Yerlemləri Alimləri vəMühəndisləriAssosiasiyasının Azərbaycan bölməsi ilə birgə  iştirak edən ANGC, AYAMA-nın yerli bölmələrinin hesabat iclasında iştirak etmişdir. 18 yerli bölmənin iştirakı ilə keçən iclasda 2012-ci il ərzində həyata keçirilmiş  layihələri əks etdirən təqdimat keçirmişdir.

İclasda 2012ci ilin oktyabr ayında Bakıda keçiriləcək Beynəlxalq Konfrans haqqında geniş məlumat təqdim olunmuşdur. Tələbələr və mütəxəssislərin inkşafı naminə həyata keçirdiyi layihələrə görə ANGC ilə birgə fəaliyyət göstərən AYAMA-nın Azərbaycan bölməsi xüsusi diqqət çəkmiş və 18 bölmə arasından 2-ci yerə layiq görülmüşdür.

ANGC AYAMA-nın 74-cü Sərgisinə xüsusi hazırlıq işləri görmüşdür. Sərgidə 2012-ci il ərzində keçirilmiş Tələbə Konfransı, çöl ekskursiyaları, geoloqların aylıq görüşlərini və s. əks etdirən plakatlar nümayiş olunmuşdur. ANGC tərəfindən keçirilən Regional Konfransın məqalələrinin toplusu, yeni nəşrdən çıxmış Azərbaycan Geoloqu elmi jurnalı və aylıq informasiya bülletenləri Sərgi iştirakçılarının diqqətnə çatdırılmışdır.

Gələcəkdə digər ölkələrin qatıldığı  Cəmiyyətləri ilə birlikdə fəaliyyət göstərmək və yeni əlaqələrin qurulması baxımından ANGC-nin AYAMA-nın Konfrans və Sərgisində iştirakı olduqca samərəli keçmişdir.

Sərginin son günü AYAMA Prezidentləri John Underhill, Len Srnkavə Xarici əlaqələr üzrə nümayəndələrZsuzsanna Hegybíró, Saskia Brouwer, Marcel van Loon, Roar van Borselen ANGC-nin seksiyasını ziyarət zamanı yaxından maraqlanmış və Bakıda keçiriləcək Beynəlxalq Konfransa AYAMA-nın qoşulmaq istədiyini xüsusi vurğulamışdır.